# Həkimin peşə sevgisi tükənməz olur



**Səhiyyənin əsas strukturları cəmiyyət reallığı üçün prioritet istiqamətlərdir. Son illər cəmiyyət quruculuğu istiqamətində aparılan işlərdə bu sahənin özünəməxsus inkişaf parametrləri əhəmiyyətli rol oynayır. Bu inkişaf tibbdə ictimai-qurucu proseslərə də əsaslı təkan verir. Bu da insanların fiziki həyatında önəmli rollardan birini oynayır.**

Sağlamlıq imkanlarının artırılması səhiyyənin əsas atributları kimi təzahür edir ki, bu da cəmiyyət həyatının aparıcı istiqaməti hesab olunmalıdır. O mənada ki, cəmiyyətimizin tibbi-müdafiə sistemi dövlət prioritetlərindən biridir. Çox sevindirici haldır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bu istiqamətdə əməli addımlar atılır, bu gün də səhiyyə-tibb aspektləri bir strateji amil kimi əhali-dövlət prosesində başlıca rol oynayır. Təbiidir ki, sağlam düşüncə pak əməldən qaynaqlanır. Cəmiyyətin quruculuq və inkişaf prioritetinə təkan verən insanlar əməli işi sağlam düşüncə ilə həyata keçirir, daşıdıqları insan adının şərəfini hər zaman uca tuturlar. Bu həyat qayəsinin mərkəz xəttində əsl insan obrazı durur. Elə genində insanlıq, mərhəmət hissləri böyük bir zirvə kimi görünən, həm də sağlamlıq xilaskarları hesab etdiyimiz həkimlərin də həyat amalı bu kodeksi özündə ehtiva edir. Doğrudan da insansevərlik bir ictimai status olaraq yalnız işini sevən, xalqına məhəbbət nümayiş etdirən insanlara xasdır.

Azərbaycan səhiyyəsindəki inkişaf artıq öz sözünü deyir: səhiyyədə yeni nailiyyətlər əldə olunur, tibb-səhiyyə faktorları günün tələbləri səviyyəsində qurulur və nəticədə əhalinin sağlamlıq imkanları genişlənir. Bu da təbii ki, müstəqil dövlətimizin apardığı siyasətin bariz təcəssümüdür.

Səhiyyədəki uğurlu inkişaf yerli strukturlara müsbət təsiri ilə də diqqət çəkir. Bu mənada hazırda paytaxt Bakı da daxil olmaqla, bütün bölgələrimizdə səhiyyə öz arqumentlərini lazımi qaydada həyata keçirir. Bu prosesi Kliniki Tibbi Mərkəzdə də aydın görürük. Buradakı tibbi xidmət, həkim-xəstə münasibətləri, həkim fədakarlığı, müayinə və müalicələrin müsbət nəticəsi və s. də sakinlər tərəfindən birmənalı qarşılanır. Elə biz özümüz də dəfələrlə burada müasir tibbi nailiyyətlərin həqiqi mənada çox yüksək səviyyədə olduğunu canlı olaraq müşahidə etmişik.

Bu tibb müəssisəsində səhiyyə işinin tibbi prosedurlarının müasir tələblərə uyğun həyata keçirilməsi istiqamətində əməli addımlar atılır. Bunun nəticəsidir ki, burada insanların sağlamlığının tam təmin edilməsi üçün bütün mümkün vasitələrdən istifadə edilir. Sevindirici haldır ki, burada səhiyyə-tibb dəyərləri çox ürəkaçandır.

Doğrudan da, KTM-in baş həkimi cənab Soltan Əliyev kollektivlə fərdi şəkildə maraqlanır, onların hər birinin işi, problemi və digər həyat qayğıları ilə yaxından tanış olur, köməyini əsirgəmir. Belə demək olar ki, Klinik Tibbi Mərkəzin baş həkim və bacarıqlı həkimlər sarıdan bəxti gətirib. Bunu xəstələr də etiraf edirlər. Söhbət əsnasında bildirirlər ki, bu müəssisənin rəhbərliyi, həkim kollektivi biz xəstələrə bir hədiyyədir. Bəli, bacarıqlı və təcrübəli insanların sayəsində cəmiyyətimizin inkişaf tempi artır, nəticədə kollektiv və rəhbərlik arasında bir doğmalıq yaranır. Elə buna görədir ki, KTM-də tibbi inkişafın əsas istiqamətləri işə məhəbbət, peşə sevgisində əzmkarlıq və s. kodekslərlə təzahür edir.

Bunun nəticəsidir ki, Mərkəzin Terapiya-Qəbul Şöbəsində çalışan dəyərli həkimlərdən biri olan Sevinc Tağıyevanın qısa tərcümeyi-halı və onun şərəfli peşəsi haqqında oxucuları tanış etmək istərdim. 1976-cı ildə fizika-riyaziyyat elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru Rafiq Tağıyevin ailəsində dünyaya göz açan Sevinc xanım 1999-cu ildə N. Nərimanov ad. AZərbaycan Dövlət Tibb Universitetini əla qiymətlərlə qurtarıb. Elə həmin ildən taleyini o, Kliniki Tibbi Mərkəzlə bağlayıb. 2000-ci ildə həmin mərkəzdə internaturanı başa vurub. Qarşısına qoyduğu ən ali məqsədi xalqına ləyaqətlə xidmətdə görən Sevinc xanım peşəsinin sirlərini daim öyrənməklə məşğuldur, həyatının mənasını isə xəstələrin şəfasında görür. Onun haqqında hamı, ilk növbədə iş yoldaşları xoş niyyətdədir, tərifəlayiq sözlər danışır. İnsanlara şəfa verən əllərinin qüdrətindən, qayğıkeşliyindən, təmiz və pak ürək sahibi olmasından söhbət açır. O, xəstələri dava-dərmanla yanaşı, yüksək mədəniyyəti, sadəliyi, şirin dili, yumşaq xasiyyəti ilə müalicə edir, ən ağır vəziyyətli xəstəni ruhi sarsıntıdan xilas etməyi bacaran təcrübəli bir həkimdir. Sevinc xanım özü ailəli, tərbiyə etdiyi 15 yaşlı Aydının anası olsa da, həmişə anasının-dil-ədəbiyyat müəllimi Humay xanımın ağıllı məsləhətlərinə qulaq asır. Anası Sevinc xanımla görüşüb söhbətə başlayanda ilk məsləhətlərindən biri xəstələrlə çox ehtiyatlı davranmağı, "xəstələrin hər birini nə qədər doğman kimi qəbul etsən, işin bir o qədər rast gedər, qızım" və sair nəsihətləridir. İşinə vicdanla və məsuliyyətlə yanaşmasının nəticəsidir ki, dəfələrlə təşəkkürnamələr və fəxri diplomlarla təltif edilib. İşini-peşəsini sevən bir insandır. Əlbəttə, peşə məhəbbəti olan yerdə nailiyyətlər qaçılmazdır. O da hamı kimi çalışdığı müəssisənin baş həkimindən razılıq edir, onun rəhbərlik missiyasının işçilərə ruh verdiyini, həmçinin onları daha yaxşı işləməyə, peşələrinə can yandırmağa sövq etdiyini vurğulayır. Biz vətəndaşların sağlamlığı keşiyində durmağı özünün vətəndaşlıq borcu hesab edən Sevinc xanıma polad can sağlığı, uzun ömür, çətin, şərəfli və məsuliyyətli peşəsində daha yüksək nailiyyətlər əldə etməyi arzu edirik.

Azərbaycan səhiyyəsi əsaslı uğurlara və perspektiv vəzifələrə imza atır. Bu da o deməkdir ki, ölkəmizdə həyata keçirilən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına da əsaslı təkan vermişdir. Tam inamla demək olar ki, son illərdə dünya standartlarına uyğun inkişaf yolu tutmuş Azərbaycan səhiyyəsinin nüfuzu nəzərə çarpacaq dərəcədə artmışdır.

Əlbəttə, Azərbaycan səhiyyəsinin 20 il əvvəlki və indiki vəziyyətinin müqayisəolunmaz şəkildə dəyişdiyini kimsə inkar edə bilməz. Fərəh doğurası haldır ki, son illər ardıcıl surətdə həyata keçirilən uğurlu işlər sayəsində Azərbaycanda səhiyə öz sivil prioritetliyini tam təmin edib.

Səmimi deyək, Kliniki Tibbi Mərkəzdə tibbi qanunauyğunluqlar günün tələbləri səviyyəsindədir. Artıq əhalinin bu tibb müəssisəsinə olan etimadı və inamı bu deyilənləri təsdiqləyir. Biz də öz adımızdan aidiyyəti müəssisənin rəhbərliyinə və həkim kollektivinə təşəkkür edir, həmişə belə yüksək ruhda olmalarını diləyirik.

**Almaz Yurdsevər (Əlizadə)**